# گۆنئي آذه ربايجاندا حقۇق دۆولتی

# Güney Azərbaycanda huquq dövləti

tərzilərinidə bizə öyrətməyə çalışmışlar. Buna örnək olaraq bizlərdə Rəhbər, Lider,Bşçı axtarmaq əhval- ruhiyəsidir. 21. ci yüz ildə belə düşüncə tərzi gülünc olduğu kimi, Rəhbərlik, Liderlik məşqinə düşməkdə haman qədər gülünc və dalı qalmışlığın nişanəsidir. Elə Azərbaycanın milli hərəkətlərindədə müvəffəqiyyətsizliklərin əsas amili bütün hərəkətin bir iki nəfərin üstündə yüklənməsi olmuşdur.

Yadların bizə təhmil etdiyi bu düşüncə tərzini bugün vətənimizin müstəqil olmuş hisəsindədə görmək mümkündür. Hər yerindən duran Lider olmaq istəyir. Bəlli xisusiyyətlərə malik olmadan Cimhurrəyisi(Prezident) olmaq məşqinə düşürlər. Qanun yerinə fərdilər ölkəni idarə etməyə qalxırlar. Güneydə Quzeydən fərqili deyildir. Hənuz bir şey olmadan özünü Rəhbər, Lider bilən çoxdur. Təsüflə uzun illər avrupada yaşayan soydaşlarımız özlərini bu yalnış düşüncə tərzindən qurtara bilməmişlər. Belə düşüncə tərzi ancaq diktator rejimlər yaratmağa gətirib çıxardar. biz belə diktator rejimləri güey Azərbaycanda və həmdə quzeydə Soviyet sistemində, eləcədə üçüncü dünyanın dalı qalmış ölkələrində şahid olmuşuq, və oluruq. Umumiyyətlə müstəqil olmaqdan, müstəmləkədən qurtulmaqdan məqsədimiz nədir ? Bu dəfə yad müstəmləkəçi diktator yerinə özümüzdən olan bir diktator yaratmaq istəyirik? Yaxud siyasi, ictimai mədəniyyətə sahib bir düzən yaradıb, millətimizin rifahına, sözün tam mənasında azadlığ, qanun və huquq dövlətini qurmaq hədəfimizdir. Təbiidir ki, məntiqə dayanan hər kəs diktatorluğu, şəxsiyyət pərəstliyi rəd edib, qanun dövlətinin var olmasını üstün tutacaqdır. Buna görədə bizim məqsədimiz güneydə qanun dövləti yaratmaqdır. Qanun dövləti öz- özünə yaranmaz. Milli qurtuluş mucadiləsinə qatılan qurum və təşkilatlar indidən bunun fikrində olmalı, öz içlərində qanundan başı çıxan sədaqətli şəxsiləri, gələcək müstəqil güney Azərbaycanın qanun taslaqlarını hazırlamalıdırlar.Yəni indidən sabahın hər sahədə fikrində olmalıdırlar. Umumiyyətlə milli qurtuluş mucadiləsinə qatılan təşkilatların hər tək- təkinin təşkilat məramnaməsi, programı olmalıdır. Programsız , məramnaməsiz milli təşkilat ola bilməz. Milli Təşkilatlar öz məramnamələrini, sabahki iş programlarını millətimizin ixtiyarında qoymaqla milləti öz səflərinə cəlb edə bilirlər. Beləliklədə xalqı şəxsiyyətpərəslikdən, Lider- Rəhbər axtarmaqdan uzaqlaşdırıb, fikirlər ətrafında birləşdirirlər. Çünkü tarixi təcrübələr bunu göstərirki, fərdləri, təşkilatları yox etmək asandır, amma fikiri düşüncəni yox etmək imkansızdır. Siyasətdən başı çıxan qabiliyyətli şəxsiyyətlərdə bu təşkilatların içində olmalıdırlar. Bu belə şəxsiyyətlərin özləri üçündə yararlıdır.

Bəs yuxarıda qeyd aedildiyi kimi tşkilatlar, hzblr(Partilar), firqələr indidən huquq dövlətinin qanun taslaqlarını hazırlamalıdırlar.Azərbaycan müstəqilliyinə qovuşduqda huquqi orqanlar bu taslaqların üstündə işləyib, yasaları tənzim edə bilirlər.

Bizim Azərbaycan toplumu yuxarıda qeyd edildiyi kimi təbii gəlişmədiyindən huquq dövləti anlayışıda gəlişməmişdir. Qərb ölkələrində qanun və qanuna hörmət təbii bir şey sayılır. Elə bizim bugün bu yerdə toplaşıb, rahatlıqla fikir alış- verişində ola bilməmiz bu ölkədə olan huquq dövləti, və onun bu dövlətə inandığı huquqi anlayışından, qanuna hörmətindən irəli gəlir. Biz bu təkamül yolunu geçirmədiyimiz üçün qanun bizdə icbar mənası daşır. çeynınir, icra olunmur, kağaz üstə qalır. Elə bunu biz vətənimizin quzeyində də hər sahədə şahid oluruq.

Qanun toplumada idarəciliyi qolaylaşdıran qayda- usullardır. Qanuna dayanan bir düzəndə dövlətin yeridə bəllidir. Hakimiyyətdə olanlarıda, siravi vətəndaşlarıda qanun qarşısında bərabərdirlər. Hakimiyyət orqanlarıda qanunun onlara verdiyi çərçivədə hərəkət edirlər. Hakimiyyətdə olmıyanlar, hakimiyyətə gəlmək istəyənlərdə öz qanuni yerlərini bilməlidirlər. Qanun dövlətində zorakılıq olmaz. Zor demək, xişunətə əl atmaq ancaq diktator rejimlərdə mümkündür. Tikrar bir tək sözlə desək , Azadlığa dayanan huquq dövlətində qanun qarşısında hərkəs bərabərdir. Istər Prezident olsun, istər nazir olsun, istər pullu olsun, istər pulsuz olsun, yaxud sıravi vətəndaş olsun.

Burada yaxşı olar ki, adını çəkdiyimiz məsləklərin huquq dövlətində olan yerlərinində üstündə duraq. Qanun dövlətində dövlət dayirələrində olan qulluqçular kimi Prezident də millət tərəfindən seçilən, yəni vəzifələndirilən xalqın qulluqçusudur. Prezident və onun yardımcıları olan nazirlər sadə dilədə desək millətin işçiləridirlər. Millət bunu bildiyi halda onlara hörmət gözü ilə yanaşır, ehtiramını yerinə gətirir. Prezident və onun nazirləridə millətin hörmətini saxlayırlar. çünkü onlara maaş verən millətdir. Dalı qalmış ölkələrdə huquq dövləti olmadığından bu məqamları əldə edənlər, çox vaxt özlərini millətdən üstün görməkdə, hətta onun ağası kimi aparırlar. Belə bir şey azadliğa dayanan huquq dövlətində imkansızdır.

Biz güney Azərbaycanda düşündüyümüz idarə usulu mədəni ölkələrdə olduğu kimi qanun üstünlüyünü ana prensib olaraq qəbul edirik. Hər sahədə bir vətəndaş lazim olduqda hökumətdə olanları sorğu- suala çəkə bilər. Hətta onların tərəfindən huquqları tapdalandıqda qorxmadan- çəkinmədən onlrı məhkəməyə verə bilməlidir.

Huquqi dövlət anlayışında dövlətin vəzifəsi vətəndaşların haqlarını qorumaq, onlara hörmətlə yanaşmaq, xususi həyatlarına mudaxilə etməmək, Anayasada və başqa qanunlarda olan göstərişləri ayaq altına qoymamaqdır.

Bizim düşündüyümüz toplumda din siyasətə qatılmır. Sekuler dövltçilik usuluna dayanır. Qadınlarla kişilər arasında heç bir sahədə qanuni fərq yoxdur.

Dalı qalmış, yaxud dini xurafata söykənən toplumlarda qadınların haqları tapdalanılır, onlara ikinci səviyəli insan kimi baxılar. Bizə görə həta irsi məsələlərdədə bu ayrı- seçginliyə son qoyulacaqdır. Qanuni cəhətdən kişilərlə xanımlar bir olmalıdır. Toplumun bütün sahələrində kişilərlə çiyin - çiyinə vətənimizin gəlişməsi üçün çalışacaqlar. necədəki , Güney Azərbaycanda milli hökumət dövründə bu fərqilər nisbidə olmuş - olas ortadan qaldırılıb, şərq dünyasında ilk dəfə olaraq onlrara seçmə və seçilmə haqı verilmişdir. Hər sahədə olduğu kimi ölkənin əmniyyət sahələrindədə çalışmağa başlamışdılar. ilk qiz məktəbidə o zaman açılmışdır. Bizim tariximizdə islamdan qabaq və nədə islamdan sonra xanımlarla ağalar arasında fərq olmamışdır. Bu indiki vəziyyət dini xurafatçılar tərəfindən yaradılmışdır.

Güney Azərbaycanda düşündüyümüz azadlığa dayanan huquq dövlətində, başqa dini və milli azlıqlar vətənimiz Azərbaycanın kültürünün bir parçasıdırlar. Hər bir Azərbaycan vətəndaşı kimi vətəndaşləq huququna malik olaraq, Ayrı- seçginliyin qarşısı alınacaqdır.

Azadlığa dayanan huquq dövlətində informasiya orqanları Azərbaycanımızın qanunları çərçivəsində azaddırlar. Dövlət kontrolunda yox, qanun kontrolundadırlar. Bu məsləklərdə çalışanlar məsuliyyət dərk edən şəxsilər olmalıdırlar. Çünkü ölkədə ana məsuliyyət daşıyan şəxsilər və qurulardırlar.

Qanun dövlətində polis, əmniyət quvələri, ordu və başqa quvələrə mənsub şəxsilər millətin və ölkənin qulluqçusu sayılırlar. onlara verilən maaşlar millətin vergilərindən(maliyyatlarından) olduğu üçün millətə yuxarıdan baxmamalıdırlar. Millət diktator rejimlərdə olduğundan fərqili olaraq, onlardan qorxub çəkinməməlidir. Əksinə hər an onlara gövənməli, özünün yaxın dayağı kimi his etməlidir. Bizim kimi uzun illər diktatorluqla idarə olunan ölkələrdə bu gövəni sağlamaq dövlətin və onun qulluqçularının ağır vəzifələrindən biri sayılır.

Əlbətə məsələnin təfərüatına keçmək istəmirəm. Faqat sizində bildiyiniz' düşündüyünüz fikirləri bir araya yığıb, kağaz üstünə gətirmək idi. bələlikldə biz istiqlalçıların boynuna düşən ağır və məsuliyyətli vəzifələri gözlər önünə sərgiləmək idi.

sözümü yekunlaşdırmaq istəyirəm. Biz istiqlalçılar, milli təşkilatlarımızda, yaratmaq istədiyimiz belə bir toplumun qanun - qaydalarını indidən düşünməli, bəhsilərimiz, dartışmalarımız bu cəhətə yönəlməlidir. Bunlar fədakar millətimizin ixtiyarında qoyulmalıdır. Millətimizin dayağını qazanmalıyıq. Bu istəklər' qanun dövlətinin yaradılması idəsi, xalqımızın idəsinə , günlük düşüncəsinə çevrilməlidir.

Istiqlaliyyəti almaq çətindir. Onu alıb saxlamaq dahada çətindir. bu məsuliyyəti bizlər və milli təşkilatlar daşımaqdadır. xəta edərsək bu günkü və sabahki millətimiz bizləri bağışlamaıyacaqdır.